# GİRİŞ

Bəzi buddistlər Siddhartha Qautama haqqında bioqrafiya yazmağın qeyri-buddist fəaliyyət olduğunu vurğulaya bilərlər. Onların fikrincə, nə qədər böyük nüfuz sahibi olursa-olsun, heç bir ali məqam sahibi ilahiləşdirilməməlidir; buddistlər öz-özlərinə ruh yüksəkliyi verməli, hansısa xarizmatik liderin göstərdiyi səylər əvəzinə, öz fəaliyyətlərinə arxalanmalıdırlar. Zen buddizminin Len-Çi istiqamətinin əsasını qoyan IX əsr ustadlarından biri nüfuz sahibi olan şəxslərin təsir dairəsinə düşməmək üçün "Buddanı görsəniz, onu öldürün!" təlqinini ön plana çıxaracaq qədər irəli getmişdi. Qautama bu düşüncədən törəyən zorakılığa rəğbət bəsləməyə bilərdi, lakin həyatı boyu şəxsiyyətə pərəstişlə mübarizə aparmış, davamçılarının müntəzəm olaraq ona yönəlmiş nəzər-diqqətini özündən uzaqlaşdırmağa çalışmışdı. Onun həyatı və şəxsiyyəti deyil, təlimi əhəmiyyət kəsb edirdi. O, mövcudluğun mahiyyətini təşkil edən həqiqətə çatdığına inanırdı. Bu bir *damma* idi.

Bu sözün geniş əhatəyə malik məna çalarları vardı və onun mənşəyi tanrılar, insan və heyvanlar üçün fundamental həyat qanununu ehtiva edirdi. O belə bir həqiqətə vararaq aydınlanmış, dərin daxili dəyişmənin təcrübəsini yaşamış və həyat iztirablarının arasında rahatlıq və müqavimət duyğusu qazanmışdı. Qautama, beləliklə, Buddaya çevrilmiş, yəni aydınlanmış və ya qəflət yuxusundan oyanmışdı. Onun tələbələrinin hər hansı biri də Buddanın metodlarını həyata keçirməyə müvəffəq olsaydı, aydınlana bilərdi. Amma onlar insan olan Qautamaya sitayiş etməyə başlasaydılar, sadəcə məqsədlərindən uzaqlaşar və bu sitayiş mənəvi inkişafa mane olan lazımsız bir asılılığın dayaq nöqtəsinə çevrilərdi.

Buddist məxəzlər bu ruha sadiq qalaraq, bizə Qautamanın həyatı və şəxsiyyəti barədə çox az məlumat verir. Tarixi baxımdan məlumatların doğruluğu məsələsində çox az mətnə sahib olduğumuz üçün müasir meyarlarla səsləşən Budda bioqrafiyası yazmaq xeyli çətindir. Buddizm adlı bir dinin mövcud olmağı ilə bağlı ilk xarici mənbə b.e.ə 269–232-ci illər arasında Hindistanda Mauriya imperiyasını idarə etmiş kral Aşokanın tərtib etdirdiyi mətnlərdə keçir. Lakin Aşoka Buddadan iki yüz il sonra yaşayıb. Etibarlı mənbələrin azlığını əsas gətirərək, XIX əsrdə bəzi qərb alimləri Buddanın tarixi şəxsiyyət olmağı məsələsinə şübhə ilə yanaşdılar. Alimlər onun samkiya fəlsəfəsinin təcəssümü və ya bir günəş təriqətinin simvolu olduğunu iddia etdilər. Lakin müasir elm bu şəkkak mövqedən əl

çəkib, buddist yazılarında, geniş yayılmış mənada, "İncil həqiqəti*" adlanan fikrin azlıq təşkil etməsinə baxmayaraq, Siddhartha Qautamanın, əslində, mövcud olduğunu və davamçılarının bacardıqları qədər onun həyatı və təlimləri haqqında xatirələri mühafizə etmələrini, demək olar, əminliklə ifadə edir. Buddanı dərk etməyə çalışsaq, onun müxtəlif Asiya dillərində qələmə alınmış və kitabxanada bir çox rəfi ələ keçirə biləcək qədim yazılarından asılı vəziyyətə düşmüş olarıq. Təəccüblü deyil ki, bu nəhəng mətnlərin tərtibi mürəkkəbdir və bir çox hissələri müzakirə predmetidir. Ümumi rəyə əsasən, bu faydalı mətnlərin əksəriyyəti maqadha dilinə (Qautamanın məhz bu dildə danışdığı ehtimal olunur) yaxın olduğu hesab edilən, Şimali Hindistanda geniş yayılan, qeyri-dəqiq mənşəyə malik pali dialektində yazılıb. Bu qədim yazılar buddizm Şri-Lanka, Birma və Tailandda yayılandan sonra yaranıb və son dərəcə mühafizəkar Teravada məktəbinin nümayəndələri tərəfindən mühafizə edilib. Lakin Aşokanın dövrünə qədər Hindistanda yazılı mədəniyyət geniş yayılmadığı üçün Pali Qanunları şifahi olaraq qorunub və çox güman ki, bizim eradan əvvəl ilk əsrə qədər yazıya köçürülməyib. Bəs bu müqəddəs mətn necə ərsəyə gəlib?

Belə görünür ki, Buddanın həyatı və təlimi haqqında ənənələrin qorunması prosesi onun ölümündən (483-cü il) qısa müddət sonra (ənənəvi Qərb tarixçiliyinə görə) başlayıb. O dövrlərdə buddist rahiblər sərgərdan

* Mütləq, əsl həqiqətin mövcudluğu nəzərdə tutulur və bu həqiqət, geniş mənada, "İncil həqiqəti" adlanır (grospel truth).

həyat tərzi keçirirdilər; onlar Qanq ovalığındakı şəhər və qəsəbələri gəzərək, oradakı insanlara iztirabdan xilas olmağı və aydınlanma haqqında məlumatları özündə ehtiva edən təlimlərini təbliğ edirdilər. Lakin musson yağışları başladıqda küçələrdən çəkilmək məcburiyyətində qalır, müxtəlif iqamətgahlara yığışır, bu mövsüm boyunca öz nəzəriyyələri və təcrübələri haqqında fikir mübadiləsi aparırdılar. Pali mətnlərinin bizə dediyinə görə, qısa müddət sonra Budda ölür və müxtəlif ölçüdəki nəzəriyyə və tətbiqlər sistemini qiymətləndirmək üçün rahiblər tərəfindən şura təşkil olunur. Belə demək olar ki, təxminən əlli il sonra Şimali Hindistanın qərb bölgəsindəki bəzi rahiblər böyük müəllimlərini xatırlaya bilirdilər və içlərindən bəziləri onun sənədlərini ənənəvi şəkildə yığmağa başlamışdı. Hələ bunları yazıya çevirə bilməsələr də, yoqa təcrübələri onlara fövqəladə dərəcədə güclü yaddaş bəxş etmişdi. Buna görə də Buddanın çıxışlarını və onun metodunun bütün təfsilatını xatırlamaq üçün müxtəlif yollar tapırdılar. Bu rahiblər, yəqin ki, Buddanın etdiyi kimi, onun təlimlərinin bir hissəsini nəzmə çəkdilər, hətta ahəngdar şəkildə oxunaqlı formaya saldılar. Həmçinin rahiblərin Buddanın mühazirələrini səmimi-qəlbdən öyrənmələri üçün təkrarlana bilən, qəlibləşmiş metodlar (hazırda da yazılı mətnlərdə mövcuddur) yaratdılar. Onlar xütbə və qanunları ayrı, lakin bir-biri ilə bütünləşən materiallar formasına saldılar, üstəlik, bir sıra rahiblərə bu məcmuələri əzbərləmək və gələcək nəsillərə ötürmək tapşırıldı.

Buddanın ölümündən təqribən yüz il sonra İkinci Şura toplandı və yəqin ki, mətnlər Pali Qanunlarının indiki formasına həmin dövrdə çatdı. Bu mətnlər, yazıya köçürüldükdə üç ayrı səbətdə saxlanıldığı üçün Tipitaka (üç səbət) adlanırdı: sutra səbəti (Sutta Pitaka), intizamlılıq səbəti (Vinaya Pitaka) və müxtəlif təlimlər toplusu. Bu üç səbətin hər biri aşağıdakı kimi müxtəlif hissələrə bölünürdü:

[1] Sutta Pitaka, Buddanın verdiyi beş xütbənin toplusundan ("nikaya"lar) ibarətdir:

[i] Diqha Nikaya – b.e.ə IV əsrdə Hindistanda dini həyatın müxtəlif aspektlərinə, rahiblərin mənəvi təliminə və qeyri-ruhanilərin öhdəliklərinə yönəlmiş otuz dörd uzun mühazirədən ibarət antologiyadır. Bundan əlavə, Buddanın şəxsi keyfiyyətlərinin (Sampasadaniya) və həyatının son günlərinin (Mahaparinibbana) şərhi də mövcuddur.

[ii] Machima Nikaya – 152 sayda, orta həcmdə olan nəsihətlərdən (sutralardan) ibarət antologiyadır. O, Buddanın aydınlanma yolunu, vaizlik cığırında ilk addımlarını, eyni zamanda, bir sıra özək ideyalar sistemini əhatə edir.

[iii] Samyutta Nikaya – insan şəxsiyyətinin quruluşu və səkkiz mərhələli yol kimi, müxtəlif mövzular üzrə təsnifatlaşdırılmış sutraların beş seriyadan ibarət toplusudur.

[iv] Anquttara Nikaya – müqəddəs mətnlərin digər bir çox hissələrini özündə cəmləşdirən sutraların on bir bölgülü məcmuəsidir.

[v] Kudakka-Nikaya – Buddanın qısa şeirlər və epiqramları əhatə edən xırda işlərinin toplusu olan *"Dammapada"*, əsasən, misralar şəklində yazılmış və müqəddimələrinin deyilmə tərzi haqqında məlumat verən öyüdlərdən ibarət *"Udana"*, Buddanın həyatı haqqında bir sıra əfsanələrdən təşkil olunmuş, şeir formalı başqa bir kolleksiya olan *"Sutta-Nipata"*, bir şəxsin "kamma"sının (əməl) gələcək həyatlarındakı təzahürünü göstərmək üçün Budda və dostlarının əvvəlki həyatlarından danışan hekayələr toplusu *"Cakata"* kimi bir sıra populyar mətnləri əhatə edir.

[2] Vinaya Pitaka – təlimin qayda-qanunlarını özündə ehtiva edən Rahib Təlimi Kitabıdır. Üç hissəyə bölünür:

[i] Sutta Vibhanqa – iki həftədən bir keçirilən şurada hər qaydanın necə qurulmağı ilə bağlı şərhlərlə birlikdə, etiraf edilməli olan 227 xətanın siyahısını təqdim edir.

[ii] Kandakas – Mahavaqqa (böyük hissələr) və Kullavaqqa (kiçik hissələr) kimi alt parçalara bölünür və bu parçalar Buddanın nizamına qəbul, həyat şəraiti və dini mərasimlərin qaydalarının, sözügedən qaydaların ortaya çıxmağına səbəb olan şərhlər və həqiqətlərin təzahürüdür. Hər bir